*Hekayə*

# Zəhra ana



**Səfər Aşır Əraslan**

Osmanlı imperiyasının süquta uğradığı bir dönəmdə ermənilər böyük bir faciə yaratmışdılar. Arxasında rus imperiyası dayanan xain ermənilər kişilərin cəbhədə olmasından istifadə edib, Ərzurumda, Artvində, Qarsda evlərə girir, soyqırım törədirdilər. Uşaqdan qocayadək ayaqyalın, başıaçıq, qaranəfəs hərə bir tərəfə qaçıb gizlənsə də, vəhşi ermənilərin əlindən canlarını qurtara bilmirdilər. Yollar döngəli, yoxuşlu, uçurumlu, qarlı, buzlu, bir sözlə, çox qorxulu idi. Ən dəhşətlisi də o idi ki, indi bu yollar quldurların məkanına çevrilmişdi. Düşmənin əlindən canlarını zorla qurtaranlar, Anadolunun içərisinə doğru qaçırdılar. Ərzurumda yaşayan Bektaşi Şeyx Heydər əfəndi isə kənddən çıxmağı heç düşünmürdü.

Nəhayət, bir gün azğın ermənilər onların da qapısına dayandı. Vəziyyəti belə görən Şeyx, İrana köçməyi qərara aldı.

Şeyxin İrandan gələn ziyarətçiləri çox olurdu, müridləri, sevənləri gətirdiyi hədiyyələrlə həmişə xətrini əziz tuturdular. Onun bu dünyada sarı saçlı, mavi gözlü kiçik Osmanından, bir də cəfakeş xanımı Zəhradan başqa bir yaxını yox idi. Osmanı uzun illərdən sonra, çox gec tapmışdılar. Buna görə də ona gözləri kimi baxır, yanlarından ayırmırdılar.

Baş götürüb bu yerlərdən getmək onlara ağır gəlsə də, çarələri qalmamışdı. Tələm- tələsik qiymətli əşyalarını da götürüb evi tərk etdilər. Onlar Osman sarıdan çox narahat idilər. İrandakı müridlərinin yanına sağ- salamat yetişib, yeni bir həyat qurmaq fikrindəydilər.

Gündüzlər kol- kosda, qaya dibində gizlənir, gecələr yol gedirdilər, hər an erməni silahlıları ilə qarşılaşa bilərdilər. Bu haqda fikirləşdikcə, canlarını qorxu alırdı. Nəhayət, gecənin bir aləmi İran sərhədinə çatdılar. Osmanın yuxuladığını görən ərarvad bircəcik övladlarına yatmaq üçün qayanın oyuğunda yer düzəltdilər. Özləri isə kənarda kürək- kürəyə verib mürgülədilər. Bir az keçmişdi ki, iki silahlı erməni qəfil başlarının üstünü kəsdirdi. Ermənilərdən biri ayağa qalxmaq istəyən Heydər əfəndini silahının qundağı ilə başından vurdu. Heydər əfəndi huşunu itirib üzü üstə yerə yıxıldı. Osmanın oyanmasından, quldurların oğlunun yerini biləcəyindən ehtiyat edən Zəhra, bu dəm qışqırmaqdan özünü güclə saxlayaraq, sərhədə doğru qaçmağa başladı. Azğınlaşmış erməni quldurlarından biri Zəhranın arxasınca yüyürərək, əl atıb saçlarından yapışdı, sürüyərək apardı....

Huşunu itirmiş Heydər əfəndi oğlunun səsinə gözlərini açdı, dəli kimi ayağa qalxdı, Osmanın ağladığını görüb onu sinəsinə sıxdı, ətrafa boylandı. Nələr baş verdiyini sanki indi anladı, özünü saxlaya bilməyib, hönkürdü: “Zəhraaa!!!”- deyə bağırdı. Səsi dağlara dəyib çilikləndi.

* * *

Atasının ölümündən sonra Osman İranda, Heydərbaba dağının yaxınlığındakı qəsəbədə şeyx oldu. Onların ziyarətinə gələn yaşlı bir mürid Şeyx Heydərin ölümünü eşidəndə çox kədərləndi. Atasını yaxından tanıdığını görən Osman, onun kim olduğunu və haradan gəldiyini xəbər aldı. Kişi “ Osman qayası” deyilən kənddən gəldiyini bildirdi. Və dedi ki, əslində kəndin adı başqadır, camaat Osman adlı oğlunu itirmiş sərsəri bir qadına görə kəndi belə adlandırır. Bunu eşidən Osman diksindi, gözləri qaraldı. Huşunu itirəcəyindən qorxub, əlini yerə dayayaraq, xeyli dinməzcə dayandı. Özünə gəldikdən sonra kişidən o qadın haqqında ətraflı danışmasını xahiş etdi.

Yaşlı mürid Osmanın həmin qadınla nə üçün belə maraqlandığının fərqinə varmadan, eşidib- bildiklərini söyləməyə başladı:

- Deyilənlərə görə, oğlunu və ərini ermənilər öldürüb, onun özünü isə girov götürüblərmiş. Qadın başına gətirilənlərdən havalanıb, ağlını itiribmiş. Gecələr dağlarda gecələyib, gündüzlər “Osmanım, Osmanım” -deyə-deyə dağlara, daşlara səs salıbmış. Əyin-başı tökülən, yalın ayaqlarını daşlar yaralayan bu sərsəm qadını kəndin uşaqları aldadıb - Osman orda, Osman burda - deyərək, ələ salırmışlar. Bir gün çobanlardan biri onu başından eləmək üçün deyir ki, yuxarıda qayanın yanında bir uşaq gördüm. Barmağı ilə uzaqdakı qayanı ona göstərir. Dəli qadın hövlnak yerindən sıçrayır, həmin qayaya qalxır, “Osmanım!”- deyə qışqırır, haray qoparır. Səsi qayalarda əks - səda verir, sanki qarşı tərəfdən oğlunun səsini eşidir, sürünə- sürünə gələrək özünü qayadan atır. Elə o vaxtdan kənd camaatı o qayaya “Osman qayası” adını verib. Ətraf kəndlərin camaatı da kəndimizə öz aralarında Osman qayası kəndi deyir.

Bu sözləri eşidən Osmanın halı yenidən pisləşdi, ürəyi sıxıldı. Həmin vaxtı Osmanın da Heydərbaba dağına üzünü tutub, “ana, ana!” - deyərək, fəryad qopardığı anlar yadına düşdü.

Onun ana acısını, ana sevdasını ürəyinin ən dərin guşəsində basdırmasından müridin xəbəri yox idi. O, bu yaşlı müridə “o sərsəri dediyiniz qadın mənim anamdır”, -deyə bilməsə də, ona: - məni o qayaya götür, - deyə bildi....



Osman həmin qayadan uzaqlara, dərin uçurumlara boylandı, dodağının altında “ ana, canım anam” - deyə, pıçıldadı, gözləri doldu. Göz yaşı gözlərində göləndi.

**Türkcədən çevirəni**
**Nazilə Gültac**